# GÖRDÜYÜMÜZ HƏYATIN ÜZÜNDƏ,

## *yaxud Şəddad Cəfərov "Nəsir İmanquliyev məktəbi"ndə*



Azərbaycan mətbuatında xüsusi diqqət mərkəzində olan obrazlar var ki, onların həyatı və fəaliyyəti, yaradıcılıq yolu salnaməyə çevrilib. Dövrə, zamana uyğun hər hansı bir qəzeti açsaq, mətbuat orqanını vərəqləsək, salnaməyə çevrilmiş obrazlar haqqında kifayət qədər məlumat ala bilərik. Belələrindən biri də, Şəddad müəllimdir. Mətbuatla bağlı hər hansı bir nüfuz sahibinin yolu ilə onun tale yolunun kəsişmələri tarixi fakt olaraq ayrı-ayrı yazılarda, müxtəlif hadisələrin çözümündə əks olunub. Belə xarakterik hadisələrdən biri də onun Nəsir İmanquliyevlə xarakterik görüşlərindən birini yaddaşda saxlayır.

Bir qədər sözün evindən başlayaq. Ağəddin Mansurzadə sənədli publisist hekayələri, ədəbiyyatşünas kimi ədəbi tənqidi məqalələri zamanın əks sədası olan çox dəyərli kitabları ilə Azərbaycan mənəvi mühitində özünəməxsus yer tutur. Beləlr haqda el içində deyərlər ki, "döşdü adamdır". Bu cəsarətli və istedadlı qələm sahibinin çox dəyərli bir kitabı da "Nəsir İmanquliyev məktəbi" adlanan xatirə povestidir. Ağəddin Mansurzadəni yaxşı tqanıdığımdan bilirəm ki, o, universitet təhsilindən başqa mükəmməl jurnalistlik fəaliyyətli keçmiş qələm əhli idi. Bu mükəmməl fəaliyyət yolunu o, Nəsir İmanquliyevin yanında keçmişdi. Tələbəsi olmaqdan başqa Nəsir İmanquliyevin seçimi ilə onun yanında işləmiş, qələmi ilə püxtələşmişdi. Kimsəyə sirr deyil ki, Nəsir İmanquliyevdə Azərbaycan mətbuatının ən dəyərli ənənələrini yaşadan, jurnalistikada dövrünün məktəbini yaradan şəxsiyyət kimi bu gün də yaddaşlarda yaşayır. Cahangir Məmmədli, Ağəddin Mansurzadə, Aslan Aslanov, Dağbəyi İsmayılov, Qulu Məhərrəmli... kimi görkəmli jurnalistlərin formalaşmasında onun məktəbinin bilavasitə, eləcə də bilvasitə rolu danılmazdır. Ona görə də onun yolunu davam etdirməyi yetirmələri özlərinə bu gün də fəxr bilirlər.

Ağəddin Mansurzadənin "Nəsir İmanquliyev məktəbi" xatirə povestini müəllifin aftoqraflı kitabından oxumuşdum. Ayrı-ayrı parçalar da yadımda idi. Onun Şəddad Cəfərovla bağlı görüşü də diqqətimi çəkmişdi. Əlbəttə, belə görüşlər çox olub ancaq xarakterik olduğundan bir epizod üzərində dayanmaq oxucular üçün də maraqlı olardı. Bu parçanı mən şərti olaraq "yanğın" adlandırıram. Çünki bu parça ayrıca bir hekayət təsiri bağışlayır. Ağəddin Mansurzadənin yerli, yataqlı təsviri ilə bu hekayətdə biz Nəsir İmanquliyevin təmkinini, gözütoxluğunu, Şəddad Cəfərovun səmimiyyətini, Ağəddin Mansurzadənin özünün qayğılanmalarını, ustadı üçün narahatlanmağını duyur və yadda saxlayırıq: "Bu gün növbətçiyəm. Hər dəfə işə tez gəlsəm də, bu gün həmişəkindən də tez gəlmişəm. Elə bil kimsə mənə xəbər verib dedi ki, redaksiyamızda nəsə xoşagəlməz hadisə baş verib.

Doğrudan da baş veribmiş. Yeddinci mərtəbəyə qalxan kimi dərhal korrektorlar otağına girdim. Oxumaq üçün səhifələr hazırdı. Qəzetin bir səhifəsini götürüb oxumaq üçün otağımın qapısını açmaq istəyəndə dostum Əliabbas Əliyevin arxadan məni çağırmasına ayaq saxladım. Onun sözlü adama oxşadığını dərhal hiss etdim.

Nə olub? Nə baş verib? - deyə ondan soruşdum.

Nəsir müəllimin evi yanıb! Gedək görək nə var, nə yox, - tələm-tələsik cavab verdi". Hekayətin bu giriş hissəsində baş verən hadisədən xəbərdar olanların keçirdiyi hisslər, hadisə içində olan ustadlarına münasibəti bu günki oxucuya ən yaxşı hisslər təlqin edir. Bəs necə, böyük Bəxtiyar Vahabzadə demişkən: "Yurdun o başında yıxılan kəsin, ağrısı qəlbində gərək göynəsin". Nəsir İmanquliyevə sadiq olan yetirmələri hadisə yerinə gəlməklə özlərinin mənəvi borclarını ödəyirlər. İnsanlıq baxımından bu çox üstün keyfiyyətdir. Ancaq iş bununla bitmir. Yanğın elə bir fəlakətdir ki, o, heçnəyi və heçkimi tanımır. Şübhəsiz, yanğında dəyən zərər yaradıcı adam üçün daha çox mənəvi zərəri ilə yadda qalır. Və bu da istər-istəməz insanda mənəvi sarsıntıya səbəb olur. Bunu onun yetirmələri də yaxşı bilir. Heç olmasa, vəziyyəti bir qədər yüngülləşdirmək üçün nələrisə etmək mümkündür. Müəllif hekayətinə davam edir: "Bəli, getdik və gördük. Nə qədər dilxor olsaq da, Allaha şükür etməyi də unutmadıq. Çünki yanan əsasən bir otaqdı, o biri otaqlara cüzi ziyan dəymişdi. Allah eləməmiş, od-alov o biri otaqlara da girə bilərdi və daha böyük faciə baş verərdi. İnsafən, elə Nəsir müəllim də şükür edirdi. Bir də ona şükür edirdi ki, evdə heç kim olmayıb, yoxsa... Hər halda özünün sağ-salamat qalması hər şeydən üstündür. Nəsir müəllimə təsəlli verib, otaqlarda xırda-para yır-yığış edib redaksiyaya qayıtdıq". Hekayətin bu yerində həyəcan, yanğın və insan taleyi... eləcə də xüsusi ekstremal mühitdə insanın öz təmkinini qoruması çox qısa, müxtəsər bir təsvirlə verilir. Ancaq kiçik təsvirlərdəki canlılıq vəziyyəti olduğu kimi təsəvvür etməyə imkan yaradır. Nəsir müəllimə olan hörmətin, ehtiramın müqabilində vəziyyətdən çıxış yolu da axtarılır. İşıq harda, kimdə ola bilər: "Bu barədə ilk məlumatı "Kommunist" nəşriyyatının (indiki "Azərbaycan") direktoru işləyən dostum Şəddad Cəfərova verdim. Və ondan xahiş etdim ki, bu işi öz boynuna götürsün. O da heç bir sorğusuz, sualsız "baş üstə!" dedi.

Bir yerdə Nəsir müəllimin yanına qalxdıq. O da öz növbəsində Nəsir müəllimə təsəlli verdi, könlünü aldı və günü sabahdan otaqların təmirinə başlayacağını bildirdi. Nəsir müəllim çox istədi ki, etiraz eləsin, lakin Şəddat əl çəkmədi. Cəmi bir aya Nəsir müəllimin evi təmir olundu və demək olar ki, yanğından heç bir əsar-ələmət qalmadı". Burada Şəddad Cəfərovu biz ön planda görürük. Onun humanizmi, səmimiyyəti real əməli ilə üzə çıxır. Bunlar keçmişdə baş verən hadisələrdir. Ancaq gələcək hadisələr üçün ibrətli ola biləcəyini düşündüyündən müəllif hadisənin üzərindən sükutla keçmir. Axı dədə-babadan qalma adətlərimiz var. Qəfil hadisəyə urcah olanlara təkcə təskinlik yox, həm də kömək etmək, yardımçı olmaq ləyaqət işidir. Və Şəddad Cəfərov da bu insanlıq missiyasını yerinə yetirməyi özünə borc bilib. Təəsüf ki, dünyamızda bu gün də elə insanlar tapılır ki, onlar xeyirxahlıq məqsədi daşıyan hər bir əməli dumana bürüməyi, onu gözdən salmağı üstün tutur. Bunun üçün bacar-




dıqlarını əsirgəmirlər. Əlbəttə, dünya bədxah insanların istəyi ilə idarə olunsaydı, onda insanlıq simasını itirərdi. Şəddad Cəfərovun yanğından sonra gördüyü bərpa işləri kimlərinsə xoşuna gəlməyə bilər, amma bununla onun gələcəyə xeyirxahlıq ənənəsi ötürdüyünü unutmayaq. Və bu əməlin də dəyəri elə ondadır ki, yadda qalır, insanlarda xeyirxahlıq duyğuları oyadır. Dargözlər isə onsuz da bəd niyyətlərini cəmiyyətin müqavimətinə baxmayaraq gizlədə bilmirlər: "Ancaq bədxahlar bunu başqa cür yozmağa başladılar. Üstəlik ora-bura məlumat da ötür dülər. Şəddat Cəfərovun humanistcəsinə atdığı addımı, etdiyi xeyirxahlığı özünü göstərmək, gö zə soxmaq kimi qələmə verməyə çalışdılar. Haradasa buna müəyyən mənada nail də oldular, nəşriyyata gündə bir komissiya göndərdilər. Bir şey tapmasalar da, direktorun qanını qaraldır, onu işdən - gücdən ayırırdılar". Ağəddin Mansurzadənin bu qeydləri dövrün şahidinin yazısı kimi bu gün də dəyərini qoruyub saxlayır. Yaxşı deyirlər ki, yazıya pozu yoxdur. Ancaq mən bu məsələyə bir əlavənin də yerini görürəm. Yazıya pozu olmaz doğrudur, əgər yazılanı bilərəkdən pozmursansa, xeyirxah əməl Şəddad Cəfərovun özünün tərcümeyi-halına əməlinin yazısıdır. Ağəddin Mansurzadənin göstərdiyi bədxahlar isə bu yazını bilərəkdən pozmaq istəsələr də güclərı çatmadı. Doğrudur, Şəddad Cəfərovun həyatı, fəaliyyəti öz harmoniyasını həmişə qoruyub-saxlayıb. Bu mənada bədxahların çuğulçuluğu, gözdən salma əməlləri müəyyən zərbə vursa da, onun həyatını xeyirxahlıq məcrasından çıxarmaq gücündə deyildir. Çünki Ağəddin Mansurzadənin dediyi kimi "Şəddad Cəfərov isə işini bilən, yerində olan adamdı. Poliqrafıya sahəsində respublikada onunla döş-döşə gələn, yaxud müqayisə olunan ikinci, üçüncü adam yox idi. On dörd yaşından poliqrafıya sahəsində, mətbəədə sıfırdırdan başlayan Şəddad Cəfərovu respublikada çoxları ilk poliqrafçı alim kimi də yaxşı tanıyırdı. Di gəl ki, bəzi qara qüvvələr belə bir yüksək ixtisaslı kadrı hər vasitəylə ləkələmək, onu gözdən salmaq, tutduğu vəzifədən uzaqlaşdırmağa çalışırdılar,axırda buna nail də oldular". Bəli, hekayətin bu hissəsində kifayət qədər təəssüf doğurucu məlumat var. Çünki müxtəlif get-gəllər, yoxlamalar axır ki, bizim ədəbi qəhrəmanımızın mənəvi mühitində kifayət qədər ağır iz buraxdı. Müəllifin qeyd etdiyi kimi Şəddad Cəfərovun işdən uzaqlaşdırılması təkcə bu hadisəylə bağlı deyildi, onun fəaliyyətini zərrəbillə izləyən bədxahları başqa "tutarlı dəlillər" də yığmaqda idilər.

Məlumdur ki, siyasi kataklizimlərin dağıdıcı təsiri düşünən, ədalət hissini qoruyan insanları bir növ küncə sıxmışdı. Bəzən haqqı bilən və təsdiqləyən adamlar da irəli dura bilmir, münasibət bildirməkdən çəkinirdilər. "Nəsir İmanquliyev məktəbi" kitabının Şəddad Cəfərovla bağlı səhifələrində daha bir maraqlı məsələnin əsl mahiyyəti üzərindən pərdə göğtürülür. İşin kökü, əsli ilə bağlı mahiyət açılır: "Doxsanıncı illərin ilk üç-dörd ilinin ağır olduğunu hamı etiraf edər. Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri seçiləndən sonra da gərginlik azalmadı, əslində daha da artdı. Paytaxtda ona çoxlu təzyiq göstərilirdi. Təzyiqlərin günbəgün artdığı bir vaxtda Şəddad Cəfərov "Naxçıvan yaşayır və döyüşür" foto-albomunu çap etdirdi. Jurnal nəşr olunan kimi bombatək partladı. Təzədən başladılar Ş.Cəfərovu qurdalamağa ki, sənə kim icazə verib belə bir "zərərli" jurnalı çap etdirmisən?" Biz bu hadisəylə bağlı Şəddad Cəfərovla bağlı yazılarımızın əvvəlki hissələrində məlumat vermişik. Möhtərəm oxucu mənbə kimi yazıçı Sevda Əlibəylinin "İlk poliqrafçı alim" kitabını xatırlaya bilər. Amma burada həmin hadisələrin birbaşa şahidi olmuş Ağəddin Mansurzadənin baxış bucağından daha dərin qatlara işıq düşdüyünü görə bilirik.

Tarix heç kimlə hesablaşmır. Azərbaycanda Heydər Əliyevin kölgəsi qılınclananda Şəddad Cəfərov nəşriyyat rəhbəri kimi Ulu Öndərin şəklini, Naxçıvan haqqında yazılmış kitabın üz qabığında çap etmişdi. Həmin dövrün şahidləri bilir ki, qaraguruhun hakim olduğu zamanda bu nə qədər təhlükəli bir addım idi.

Nəsillər dəyişir, yeni düşüncə, yeni insan nəsilləri gəlir. Ancaq bu dəyişmələrin fonunda böyükləri daha uca və yenilməz görürük. Şəddad Cəfərovun taleyinə münasibətdə olduğu kimi...

Gördüyümüz həyatın üzündə nələr olur... Yaxşını da, pisi də gərək unutmayaq.

***(Davamı var)***
***29.06.2020***